2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü İlkin Şahbazovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 oktyabr 2015-ci il tarixli 79 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri 11 oktyabr 2015-ci il

Mən, ekspert qrupunun üzvü İlkin Şahbazov 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Vətəndaş Həmrəyliyi Partiyasının səlahiyyətli nümayəndəsi Hüseynli Tural Azər oğlunun, həmin partiya tərəfindən namizədliyi 51 saylı Qusar seçki dairəsi üzrə irəli sürülmüş Şəfiyev Şəfi Əyyub oğlunun namizəd kimi qeydə alınmasından imtinaya dair 2015-ci il oktyabrın 10-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətini araşdıraraq aşağıdakıları müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq tərtib edilərək müəyyən edilmiş müddətdə verildiyindən müvafiq rəy verilməsi üçün tərəfimdən icraata qəbul edilmişdir.

Səlahiyyətli nümayəndə Hüseynli Tural Azər oğlu müraciətində qeyd etmişdir ki, 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 51 saylı Qusar seçki dairəsi üzrə namizədliyini Vətəndaş Həmrəyliyi Partiyası tərəfindən irəli sürülmüş Ş.Ə.Şəfiyevin qeydə alınmasından imtina edilməsi barədə dairə seçki komissiyasının gəldiyi nəticə əsassız və qeyri-qanunidir

Dairə seçki komissiyası namizədliyi irəli sürülmüş Ş.Ə.Şəfiyevin namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə qərarını onunla əsaslandırmışdır ki, namizədin müdafiəsi üçün təqdim edilmiş seçici imzaları Seçki Məcəlləsinin tələblərinin pozulması ilə toplanılmışdır.

Araşdırma prosesində müəyyən edilmişdir ki, namizədin qeydə alınması üçün təqdim olunmuş 10 imza vərəqəsindəki 500 seçici imzasından 80-ni həmin seçki dairəsi üzrə seçki məntəqəsi məntəqə seçki

komissiyasının üzvü tərəfindən toplanılmışdır. Etibarlı imzaların sayı Ş.Ə.Şəfiyevin namizəd kimi qeydə alınması üçün kifayət etmir.

Seçki Məcəlləsinin 17.6.4-cü maddəsinə görə hər hansı bir namizədin, siyasi partiyanın dəstəklənməsinə yönəldilən və ya dəstəklənməsi kimi başa düşülə bilən hərəkətlərə yol verməməlidirlər.

Seçki Məcəlləsinin 113.1.1-ci maddəsinə əsasən, seçki komissiyası namizədin qeydiyyata alınmasından onun tərəfindən bu Məcəlləyə uyğun təqdim etdikləri məlumatlar həqiqi olmadıqda və ya onların etibarsızlığı əhəmiyyətli xarakter daşıdıqda (bu Məcəllənin 60.3-cü maddəsində göstərilən hallar istisna olmaqla) imtina edə bilər.

Seçki Məcəlləsinin 147.1-ci maddəsinə əsasən namizədin müdafiəsi üçün onun irəli sürüldüyü seçki dairəsinin ərazisində seçicilərin azı 450 imzası toplanılmalıdır.

Göstərilənlərə əsasən şikayət əsassız olduğundan təmin edilməməli, namizədliyin qeydə alınmasından imtinaya dair 51 saylı Qusar seçki dairəsi dairə seçki komissiyasının 7 oktyabr 2015-ci il tarixli, 14/2-3 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 17-ci, 19.4-cü, 28.2-ci, 60-cı, 112-ci, 112-1-ci, 113.1.1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **rəyə gəldim :**

1. 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Vətəndaş Həmrəyliyi Partiyasının səlahiyyətli nümayəndəsi Hüseynli Tural Azər oğlunun 10 oktyabr 79 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 7 oktyabr 2015-ci il tarixli, 14/2-3 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılsın.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü İlkin Şahbazov